# Çiçəkləri təravətləndirən eşq

**Çağdaş Azərbaycan nəsrində imzası kifayət qədər tanınmış yazarlardan hesab olunan Camal Zeynaloğlunun "Baş tutmayan intihar" kitabı stolumun üstündədir. Bu, sevimli yazıçı-publisistin sayca 19-cu kitabıdır. Açığını deyim ki, qısa zaman ərzində bu sayda sanballı və hər biri kifayət qədər mükəmməl olan nəsr əsərləri yaratmaq bir çox yazıçılara nəsib olmur.**

Camal Zeynaloğlunun əvvəlki kitabları və bu kitablarda toplanmış povest, hekayə, esse və aforizmlərindən yetərincə bəhs olunduğundan, mən onun bir neçə ay bundan öncə işıq üzü görmüş "Baş tutmayan intihar" hekayələr toplusundakı əsərlərindən söhbət açmağa üstünlük verdim. İlkin olaraq qeyd edim ki, yazıçının əksər əsərlərində mənfi və müsbət qütblər, əsil insanın keyfiyyətə mənsub olan qəhrəmanlar, qaranlıq və işıq effektləri geniş yer tutur. Elə yazıçının qarşımdakı kitabı da bu baxımdan istisna deyil. Toplunun adını daşıyan ilk hekayə bu cümlə ilə başlayır: "Ağaclar artıq çiçəkləməyə başlamışdı." Təsadüfi olsa da, mən bu qeydləri edərkən yaz fəsli yurdumuza yenicə qədəm qoymuşdu. Hər tərəf yaşıllığın içində idi. Camal müəllim demiş, "ağaclar artıq çiçəkləməyə başlamışdı". Mən kitabda yer alan tutarlı hekayələri oxuduqca bahar nəfəsli, bahar kimi təmiz insanların əhatəsində olduğumu, onlarla çiyin-çiyinə işlədiyimi və bir səma altında yaşadığımı hiss etdim. Yazı boyu bahar mövzusuna ola bilsin ki, yenidən qayıdacağam. Əsas məqsədim isə bu kitabda toplanan hekayələrin ideya-məzmun və bədii xüsusiyyətlərinə diqqət yetirməkdir.

Məlum faktdır ki, həyat qəribə hadisələrlə zəngindir. Camal Zeynaloğlunun "Baş tutmayan intihar" hekayəsində qeyri-adi bir olayla rastlaşırıq. Heç bir sirri bilinməyən gənc bir qadın dəniz kənarına - daha dəqiq desək, dənizkənarı parka gələrək özünü suların ağuşuna ataraq intihara cəhd edir. Lakin xeyirxah insanlar vaxtında onu ölümün pəncəsindən xilas edirlər. Sonradan məlum olur ki, 25-30 yaşlarında olan Sevda adlı bu qadını belə bir hərəkətə sövq edən onun kiçik yaşlı körpəsi ilə tək-tənha və maddi sıxıntılar içərisində qalması məcbur edib. Əsərin əsas yükünü daşıyan, hekayənin sonuna qədər adı belə bəlli olmayan kişi qəhrəmanı Zeynəb adlı namuslu, qeyrətli bir xanımla bu düşkün qadını evlərinə gətirirlər. Qısa vaxt içərisində bu əsil azərbaycanlı ziyalısı Sevdaya iş yeri də tapır,




Zeynəb xanımla onun, demək olar ki, bir çox problemlərini həll edir. Əsası isə, bu namuslu qadını ölümdən xilas edirlər. Ürək ağrısı və kövrək duyğularla qələmə alınan hekayə bu sözlərlə başa çatır: "Özümü həyatım boyu indiki qədər məmnun və rahat hiss etməmişdim..." Müəllif əvvəldə dediyimiz kimi mənfi və müsbət qütbləri real bir planda ümumiləşdirməyə nail olub. Elə buradaca, təzədən yadıma hekayənin ilk cümləsi düşür: "Ağaclar artıq çiçəkləməyə başlamışdı". Bəli, Sevda kimi kimsəsiz və çarəsiz insanların həyatı yaxşı insanların köməyi sayəsində öz axarına düşməyə başalmışdı... Hekayənin sənətkarlıqla qələmə alınması təsvir olunan hadisənin uzun müddət oxucuları düşündürəcəyinə məndə bir əminlik yaradır. Kitabda ardıcıllıqla gələn "Tində dayanmış qadın" və "Quru çörək" hekayələri də dünyanın yaxşılığından və yaxşı insanlardan hələ xali olmadığını göstərir. Bu hekayələri həyəcansız, bəzən hətta göz yaşları olmadan belə oxumaq mümkün deyil. Bu isə Camal Zeynaloğlunun artıq yetkin və püxtələşmiş bir yazıçı olmasından xəbər verir.

Bu kitabın maraqlı cəhətlərindən biri də hekayələrin tematik, ideya-məzmun və bədii cəhətdən bir-birini izləməsi, bir-birinin davamı kimi sıralanmasıdır. "Tövbə" və "Haram tikə" əsərləri bu baxımdan diqqəti cəlb edir. Hekayələrin qəhrəmanları Rauf və Rəhim obrazları incə detallarına qədər açıqlanmışdır. Hər iki insan həyatın ən sadə məntiqini belə qəbul edə bilməmələri ucbatından həqiqəti, ləyaqəti ayaqlayaraq, haram yolunu seçirlər və sonda Rauf dünyadan cavan gedirsə, Rəhim kişi isə əzabların məngənəsində sıxılır.

"Paxıllıq" hekayəsi isə ailə-məişət mövzusunda qələmə alınmışdır. Erkən yaşlarında həyat yoldaşını itirən Gülüsüm xala 9 və 12 yaşlı oğlanlarını böyük əzab və məşəqqət içərisində böyüdür. Sonralar bu ailədə də baş verən daxili intiriqalar, yersiz söz-söhbətlər, xüsusən kiçik gəlinin - Aynurun daxili çirkinliyi hesabına bu xoşbəxt ailə faciylə üzbəüz gəlir. Camal Zeynaloğlu bütün hekayələrində və esselərində mənəvi paklığı, psixoloji tarazlığı sənətkarlıqla izləyir və problemləri özünəməxsus şəkildə həll edir.

C.Zeynaloğlunun hekayələrinin bir qismi 1-ci Qarabağ müharibəsinə həsr olunmuşdur. Bu hekayələrin içərisində "Snayperçi qız" hekayəsi bədii tamlığı və sənətkarlıq xüsusiyyətləri ilə yadda qalır. Əsərin məzmunu haqqında bir neçə kəlmə: Rəhilə adlı bir qız döyüş bölgəsinə gəlir. O, snayperçidir. Usta atıcıdır. Sonradan məlum olur ki, Rəhilənin nişanlısı Azad bu bölgədə şəhid olub. O, bura düşmədən nişanlısının intiqamını almaq üçün gəlib. Onlarla düşməni "ovlayan" Rəhilə axırda özü də qəhrəmanlıqla həlak olur. Bu bizim şanlı tariximizdən bir səhifədir. Qəhrəmanlıq səhifəsi. "O müdhiş gecə", "Mühasirə", "Qanlı məktub" hekayələri də müharibədən bəhs edir. Gənclərimizdə Vətənə məhəbbət hissi aşılayan bu əsərlər hələ neçə-neçə igid oğullarımızı tərbiyələndirəcək. Son günlərdə Azərbaycan Milli Ordusunun cəbhədəki uğurları da inanıram ki, Camal müəllimin yeni əsərlərinin mövzusuna çevriləcək. Yazıçının aforizmlərinin birindən seçdiyim "Çiçəkləri təravətləndirən eşq" ifadəsi üstə, ataya-anaya, qardaşa, bacıya, dosta, yoldaşa eşq üstə! Camal Zeynaloğlu da bu eşqi - "çiçəkləri təravətləndirən eşq"i tərənnüm edir, bədii detalla, mövzuya çevirərək bizi dərindən - dərinə düşündürür. Bir də xatirimə yenə də kitabdakı ilk hekayənin ilk cümləsi düşür: "Ağaclar artıq çiçəkləməyə başlamışdı." Bəli, bizi - qəhrəman Ordumuzu qələbəyə aparan yol daşdan-kəsəkdən təmizlənmişdir. Səngərlər çiçəkləməyə başlamışdır. Doğma torpağa olan eşqimiz sayəsində! Camal Zeynaloğlu kimi qəlbi Vətən sevgisi ilə çırpınan yaradıcı yazarlarımız sayəsində!..

**Ələddin Əzimli,**
**şair**

Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Müxbir

AZ42